**UOT 342**

# SOSİAL DÖVLƏT VƏ AİLƏ

**A.N.İBRAHİMOVA**
***Bakı Dövlət Universiteti***
***aytakin_ibrahimli@mail.ru***

*Məqalədə ailə cəmiyyətin əsas özəyi kimi təsvir edilmişdir. Sosial dövlətin qurulması üçün ilk növbədə, cəmiyyətin müxtəlif sahələrində islahatlar aparmaq lazımdır. Cəmiyyətin əsas özəyi kimi isə sosial islahatı ailədən başlamaq lazımdır. Belə ki, yalnız sosial rifahı təmin olunmuş ailə, sağlam cəmiyyətin əsasını təşkil edə bilər. Məhz bunun üçün isə vacib şərt kimi dövlət, "ailə və sosial dövlət" adlı konsepsiyanı daha da inkişaf etdirməli, dövlətin bu sahədə qanunvericilik bazasını təkmilləşdirməlidir. Məqalədə ailə ilə bağlı sosial məsələləri həll etmək üçün təklif kimi "Ailəyə sosial yardım" adlı qanunun yaradılması irəli sürülmüşdür. Əsas təklif kimi o da irəli sürülmüşdür ki, qanunda ailənin istifadə edəcəyi sosial hüquqlar sadalanmalı, bu hüquqları təmin edən orqanın funksiyaları müəyyənləşməli, sosial hüquqların həyata keçirilməsi üçün cəlb olunan maliyyə mənbəyi, fondlar göstərilməli, sosial hüquqlardan istifadə imkanı isə ailə fərdlərinə görə müəyyənləşməlidir. Bu müəyyənləşmənin müsbət cəhəti isə ondan ibarətdir ki, fərdi hüquqlar fərdi məsuliyyət yaradaraq, gələcəkdə münasibətlərin həllində qeyri-müəyyənliyi aradan qaldıracaqdır.*

**Açar sözlər:** cəmiyyətin əsas özəyi kimi ailə, ailə və sosial dövlət, ailənin sosial rifahı üçün təmin olunmuş hüquqlar, bu hüquqların realizə formaları

Ailə cəmiyyətin əsasını təşkil edir. Cəmiyyətin təşkilatlanması ailədən başlayır. Ailədə ana, ata və uşaqların arasında bir nizam olur ki, bu da ailə ortamında yaşayan fərdlərin müxtəlif ehtiyaclarını ödəmək üçün bir mühit yaradır. Bu ehtiyaclar qidalanma, maddi istehlak, fiziki, mədəni və təhsil kimi mənəvi dəyərləri yaradan ehtiyaclar ola bilər. Cəmiyyətdəki bütün fərdləri maraqlandıran bu ehtiyacların bir ailə ortamında lazım olan qədər ödənilməsi, nəslin güclənməsini, onların maddi və mənəvi dəyərlərinin zənginləşməsini və bunların yeni nəsillərə də ötürülməsini təmin edir.

Ailə növləri müxtəlifdir. Gəlmiş-keçmiş və bu gün də yaşamaqda olan cəmiyyətin quruluşuna görə müxtəlif ailə növləri formalaşmışdır. Məsələn: cəmiyyətin torpaq mülkiyyətinə əsaslandığı vaxtlarda torpağın bölünüb parçalanmaması, ailə fərdləri tərəfindən işlədilməsi zərurəti böyük ailəni uzun əsirlər boyu yaşatmışdı. Məhz bir kimsənin cəmiyyətdə etibar görməsi üçün belə bir böyük ailəyə mənsub olması vacib idi. Ailə ilə fərdləri birləşdirən tellər nikah kimi hüquqi bir vasitə ilə ola bilər. Belə ki, ər-arvad münasibətləri nikah sözləşməsindən yaranır ki, ailənin də hüquqi şəkli nikah hesab olunur.

Sosial funksiyalı dövlətlərin konstitusiyalarında ailə cəmiyyətin dayağı olduğu konstitusion normalarla tənzimlənmişdir. Misal üçün: Alman Konstitusiyasının 6-cı paraqrafı ailə münasibətlərinə və onun qorunmasına həsr olunmuşdur. 1946-cı il tarixli Fransız Konstitusiyasının preambulasında ailənin cəmiyyətin nüvəsi olduğu müəyyənləşmişdir. Bu surətlə ailə qurumu Konstitusion rəsmiyyət qazanmış olmaqdadır.

Onu da qeyd edək ki, artıq ailə dövlətlərin sərhədləri xaricində, millətlərarası münasibətlərlə tənzimlənir. 1948-ci il BMT tərəfindən qəbul olunmuş "İnsan hüquqları bəyannaməsi"nin 16-cı maddəsinin 3-cü paraqrafında deyilir: "Ailə cəmiyyətin təbii və köklü bir ünsürüdür. Bu səbəblə də cəmiyyətin dövlət tərəfindən qorunma hüququ vardır". 7 iyul 1961-ci il tarixli Avropa Sosial Xartiyasının 16-cı maddəsində də ailənin cəmiyyətin nüvəsi olduğu qeyd olunmuşdur (12, 13).

Cəmiyyətin həyatında bu qədər önəm daşıyan ailənin, dövlət tərəfindən yoxlanılması ehtiyacdan irəli gəlmişdir. 19-cu əsrin Liberal dövlətləri ailənin hüquqi şəkli olan nikah qayda-qanunlarına çox həssaslıqla yanaşırdılar. Bu əsirdə və 20-ci əsrin əvvəllərində hazırlanmış bir çox mədəni qanunlarda ailənin mükəmməl hüquqi tənziminin başa çatdığını qismən də olsa görmək mümkün idi. Belə ki, ailə üçün nikahın zəruriliyi əxlaq baxımdan üsul və qaydalar ilə müəyyən olunmuş tərzdə nikaha daxil olma, sağlam nəsil yetişdirilməsi üçün xəstəliyi olanlara evlənmə icazəsinin verilməməsi, evliliyə xitam verənin yeganə qanuni əsası kimi boşanmanın çıxış etməsi, boşanmanın yalnız məhkəmələrin hökmü ilə mümkünlüyü, ər-arvad arasında ortaq əmlakla bağlı hüquqi problemlərin yalnız məhkəmələr yolu ilə tənzimlənməsi və s. bu kimi hüquqlar tanınmışdır (5, 10).

Konstitusiyamızda ailə və nikah məsələləri diqqət mərkəzində saxlanılmışdır. Konstitusiyanın 34-cü maddəsi "Nikah hüququ" adlanır. Maddədə birbaşa olaraq göstərilmişdir ki, ailə və nikah dövlətin himayəsindədir və hər kəsin qanunla nəzərdə tutulmuş yaş həddinə çatdıqda ailə qurmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla nikaha daxil edilə bilməz. Eyni zamanda maddədə o da qeyd olunur ki, analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir və dövlət çoxuşaqlı ailələrə yardım göstərir. Maddədə dövlətin qanunla birbaşa ailəyə verdiyi sosial təminatlarla yanaşı, ailə-nikah münasibətləri valideyn-övlad, ər-arvad münasibətlərinə də toxunulmuş və onların hüquq və vəzifələri təsbit edilmişdir. Belə ki, qanunda göstərilir ki, ərlə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququdur, həm də borcudur. Eyni zamanda valideynlərin qayğısına qalmağın və onlara hörmət etməyin uşaqların borcu olduğu və on səkkiz yaşına çatmış əmək qabiliyyətli uşaqların əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borclu olduğu öz əksini tapmışdır (1).

Konstitusiyada əks olunan hüquq münasibətlərini rəhbər tutaraq qəbul olunmuş Ailə Məcəlləsi ailə-hüquq münasibətlərinin daha ətraflı tədqiq olun-

ması və tənzimlənməsini həyata keçirir. Belə ki, birbaşa olaraq göstərilmişdir ki, Azərbaycan Respublikasında ailə dövlətin himayəsindədir. Ailə qanunvericiliyi ailələrin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir. Qanunda o da qeyd olunur ki, Azərbaycan Respublikasının nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və bu zaman yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanınır. Bu qısaca izahdan da göründüyü kimi dövlət ailəni ideal olaraq qorumaq və sağlam bir şəkildə yaşatmaq üçün ailə hüququnda hər cür münasibətləri tənzimləməyə çalışmışdır (2).

Liberal hüquq qanunvericiliyinə malik olan ölkələrdə ailə qurumuna dövlətçi yanaşmaq əslində ilk baxışdan ziddiyyətli görünə bilər. Hətta bu fikir ailə hüququnun dövlətləşdirilməsini iddia edən hüquqçuların fikirləri ilə daha da ziddiyyət təşkil edir, ancaq bu ziddiyyətin əslində bir görüntü olduğunu da unutmamaq lazımdır. Çünki dövlətin ailəni və ailə hüququnu bu dərəcədə qayğı ilə tənzimləməsi sadəcə evliliyin sağlam təməllər, ailənin müəyyən olunmuş qaydalar əsasında qurulmasını təmin etmək və əgər ailə münasibətlərinə xitam veriləcəksə, yenə müəyyən olunmuş qaydalarla xitam olunması kimi münasibətləri tənzimləmək istəyindən irəli gəlmişdir. Liberal dövlət ailə qurmaq istəyən fərdləri bu münasibətlərə girməyə zorlamadığı kimi, ailə qurulduqdan sonra da onun yaşam tərzinə qarışmamağı, ailə azadlığına müdaxilə etməyi düşünməmiş və əsasən liberal fəlsəfəyə zidd olan bu cür davranışlardan uzaq olmuş, hətta ailə toxunulmazlığını təmin etmək üçün qanunda cəza tədbiri belə nəzərdə tutmuşdur. Liberal dövlətin bu mövqeyindən də göründüyü kimi – Liberal dövlət yalnız ailə qurularkən ona hüquqi qiymət vermiş, ailə qurulduqdan sonra isə onu təkbaşına buraxaraq, öhdəliyi ailə başçısına həvalə etmişdir (6, 10). Ancaq 19-cu əsrin ortalarından sonra qüvvətlənmiş olan kapitalizm nizamı getdikcə əhalinin böyük kütləsinin kasıblaşmasına gətirib çıxardı. Belə bir vəziyyətdə isə dövlətin hər bir fərdə və ailəyə verdiyi azadlıq, o dövrün deyimi ilə desək "icazə verin etsinlər" fikri öz əhəmiyyətini itirməyə başladı. Ailənin yuvaya, uşaqların baxım və təhsilə, ailə üzvlərinin işsizlik, xəstəlik, əlillik, qocalıq kimi işləməyə və pul qazanmağa mane hallarında köməyə ehtiyacı vardır. Bu zaman sadəcə müstəqilliyi təmin etməklə, məruz qaldığı və aradan qaldıra bilmədiyi maddi sıxıntılar qarşısında tamaşaçı kimi qalmanın mümkün olmayacağını anlayan dövlət təcili ehtiyac içində olan böyük təbəqənin problemlərini həll etməyə başladı. Bu sürətlə fərdin və ailənin müstəqilliyinin təmininə yönəlmiş olan sosial ehtiyacları təmin etmək üçün dövlət qorumaq, mühafizə etmək kimi vəzifələrini qüvvətləndirdi və fərdlər dövlətdən bəzi sosial hüquqlar tələb etmək imkanı əldə etdilər (7, 8).

Sosial hüquq anlayışı ilk dəfə 1848-ci il tarixli Fransa Konstitusiyasında öz əksini tapmışdır. Ancaq bu hüquqların tətbiq olunmasında çətinlik yarandı. Yalnız I Dünya müharibəsinin qərb cəmiyyətində yaratdığı sosial-iqtisadi problemlər sosial hüquqların Konstitusiya ilə tənzimlənməsinə səbəb oldu. Necə ki, 1919-cu il tarixli Alman Cümhuriyyəti (Veymar) Konstitusiyası sosial hüquqları geniş şəkildə tənzimləyir və 151-ci maddəsində "İqtisadi həyatın ədalət, qayda-qanuna görə və hər kəsə, insanlığa yaraşan tərzdə düzənlənməsi" hökmünü qoruyur və bu məqsədə çatmaq üçün dövlətin lazımi, məsul olan qurumları yaradaraq xalqın sağlığını, gənclərin və uşaqların hər baxımdan yaxşı yetişmələrini təmin edəcəklərini ifadə edirdi (8, 9).

İkinci dünya müharibəsindən sonra qəbul olunan yeni Konstitusiyalarda sosial hüquqlar daha geniş şəkildə tənzimlənmişdir. Misal üçün, 1946-cı il Fransa Konstitusiyasının preambulasında ananın, uşağın, yaşlıların qorunması, istirahət hüququ, təhsil hüququ, işlə təmin olunmaq kimi sosial hüquqları öz əksini tapmışdır. 1948-ci il İtaliya Konstitusiyasının ikinci və üçüncü bölmələrində də sosial hüquqlara çox geniş yer verilmişdir. 1949-cu il Qərbi Almaniya Bonn Konstitusiyasında dövlətin əsas məqsədinin "Sosial dövlət" olduğu göstərilmişdir (8).

Bu konstitusiyalardan geniş şəkildə bəhrələnərək qəbul olunan Türk Anayasasının 2-ci maddəsi isə dövlətin sosial xidmət xüsusiyyətini bildirmiş və 3-cü bölməsini bütövlükdə "Sosial və iqtisadi hüquqlar və tapşırıqlar" adlandırmışdır. Məhz Türk Anayasasının 35-ci maddəsində qeyd olunur ki, dövlətin vəzifəsi ailəni qorumaqdır. Dövlət ailənin, ananın və uşaqların qorunması üçün lazımi tədbirlər və təşkilatlar qurur. Lakin bu maddə ilə bağlı Anayasada dövlətin ailəni qoruması üçün nə kimi tədbirlər görəcəyinə və necə yardım edəcəyinə dair bir izahat yoxdur. Sosial dövlət və ailə ilə bağlı Türkiyədə həyata keçirilən I və II Beşillik planda bu tədbirlər və yardımın növü müəyyənləşmişdir ki, bununla da bir çox suallar öz cavabını tapmışdır.

2009-cu il Konstitusiyamıza əlavə və dəyişikliklər nəticəsində konstitusiyamızın 12-ci maddəsində dövlətin ali məqsədi kimi insan və vətəndaşların hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi göstərilmişdir. Konstitusiyamızda birbaşa olaraq dövlət sosial dövlət kimi göstərilməsə də, ancaq layiqli həyat səviyyəsini təmin etmək kimi öhdəlik götürməsi və bu yönümdə əsaslı addımlar atılması Azərbaycanı tezliklə bir sosial dövlət kimi formalaşdıracaqdır. Konstitusiyamızın 16-cı maddəsi "Sosial inkişaf və dövlət" adlanır. Maddədə birbaşa olaraq qeyd olunur ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur (1).

Bugünkü hüquq nizamı ailəni təkcə qanunun müəyyən etdiyi qaydalarla

qurulmuş bir birlik olaraq tanımır, eyni zamanda bu gününün ailəsini, cəmiyyətdə ola biləcək sosial-iqtisadi təhlükələrə qarşı sosial hüquqlarla təmin etmiş və bu hüquqlarını dövlətdən istəyə, tələb edə bilən bir quruluş kimi tanıyır. Dövlətin ailəni qurmaq kimi öhdəliyi vardır. Konstitusiyamızın 17-ci maddəsi birbaşa olaraq qeyd edir ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Ancaq Konstitusiyada dövlətin ailəni qoruması üçün nə kimi tədbirlər və hansı növ köməklik göstərə biləcəyinə dair bir izah yoxdur. Konstitusiyanın 17-ci maddəsinin ikinci hissəsində uşaqların qayğısına qalmaq və onları tərbiyə etməyin valideynlərin borcu olduğu, bu borcun yerinə yetirilməsinə dövlətin nəzarət etdiyini, valideynləri və qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqların isə dövlətin himayəsində olduğu birbaşa öz əksini tapmışdır. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. Konstitusiyada o da öz əksini tapmışdır ki, uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Əslində bu təminatların Konstitusiyada birbaşa olaraq öz əksini tapması bizim cəmiyyətdə ailənin əsas yerlərdən birini tutduğunun əyani təsbitidir. Lakin dövlət tərəfindən hansı səviyyədə, hansı üsul və vasitələrlə ailənin qorunması kimi suala cavab verməkdə yenə də çətinlik çəkirik. Belə ki, bu məsələyə Konstitusiya da daxil olmaqla, müxtəlif qanunvericilik aktlarında toxunulsa da əslində bu qoruma ilə bağlı deyil, sadəcə təminatdır. Bir sıra qanunvericilik aktlarının timsalında dediklərimizi nəzərdən keçirək (1).

Sosial sığorta haqqında Azərbaycan Respublikasının qanununda birbaşa olaraq göstərilir ki, sosial sığorta - pensiya yaş həddinə çatmaq, əlil, sağlamlıq imkanların məhdudluğu, ailə başçısını itirmək, əmək qabiliyyətinin müvəqqəti itirilməsi, hamiləlik və doğum, uşağın anadan olması, uşağa qulluq, ölüm, işsiz olma (qanunvericiliklə müəyyən olunmuş dövr üçün) zamanı yaranır. Əslində sosial sığorta haqqında qanunda sosial hüquqlara geniş yer verilmiş olsa da, ailənin birbaşa qorunmasına yönələn bir qanun deyil. Belə ki, qanunun 1-ci maddəsində birbaşa olaraq qeyd edilib ki, sosial sığorta – bu qanunla nəzərdə tutulmuş hallarda fiziki şəxslərin itirilmiş haqlarının, gəlirlərinin və ya xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəlmiş təminat formasıdır. Ancaq bütün bunlara baxmayaraq, qanunda dolayı yolla da olsa, bu qanunla nəzərdə tutulmuş fiziki şəxslərin ailələrinin müxtəlif səbəblərlə sosial yardımlardan istifadə edə bilmək imkanının olması öz əksini tapmışdır (3).

Sosial yardımların geniş yer aldığı digər bir qanun isə "Dövlət qulluğu" haqqında qanundur. Qanunda dövlət qulluqçuları, onların həyat yoldaşları və uşaqları və öhdəliyində olan ata və analarının xəstəliyi zamanı, özlərinin isə peşə qəzalarına məruz qaldıqları hallarda sosial sığorta yardımlarından istifadə edə bilmək imkanı göstərildiyi kimi, qulluqçunun iş üçün başqa yerə ezam olunduğu vaxt isə mənzil, nəqliyyat vasitəsi, uşaqlarının təhsil ala bilməsi üçün məktəblə təmin olunması kimi sosial təminatları birbaşa öz əksini

tapmışdır. Lakin dövlət qulluğu haqqında qanun yalnız dövlət qulluqçuları ilə bağlı münasibətləri tənzim etdiyi kimi, həm də ailənin qorunması ilə bağlı müddəaları da yalnız bu qanunun subyektlərinə şamil olunur və bu da digər ailələrin bu imkanlardan istifadə edə bilmək imkanını minimuma endirir (4).

Bunun kimi "Vəkillik haqqında" qanunda da vəkillərə bəzi şərtlərlə sosial sığortalardan faydalanma imkanı verilsə də, lakin ailənin qorunması ilə bağlı birbaşa olaraq hər hansı bir norma qanunda nəzərdə tutulmamışdır.

Konstitusiyanın "Ailə, uşaqlar və dövlət" adlanan 17-ci maddəsi ailənin, uşaqların qorunması problemini bütün genişliyi ilə əhatə etmir. Lakin bu problemləri aradan qaldırmaq üçün dövlətimiz bu sahədə iri layihələrə imza atmışdır. Məhz Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş 2009-cu ilin "Uşaq ili" elan edilməsi ilə bağlı Tədbirlər planında Azərbaycan uşaqları haqqında məlumat bankının və İnternet saytın, xüsusi portalın yaradılması, müasir ailə modelinə dair müvafiq tövsiyələrin hazırlanması, BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyası ilə bağlı maarifləndirmə işinin gücləndirilməsi və s. kimi proqramların təşkili nəzərdə tutulmuşdu. Bu və bunun kimi yüzlərlə layihə ilə dövlətimiz bir daha ailəyə verdiyi böyük önəmi təcəssüm etdirir.

Yekun olaraq onu təklif etmək istərdim ki, bütün bu problemlərin həll olunmasında "Ailəyə sosial yardım" adlı qanunun qəbul olunması çıxış yolu ola bilər. Bunun üçün birinci növbədə münasibətlərin subyektləri müəyyənləşməlidir. Subyektlər də, öz növbəsində, iki yerə bölünməli: sosial hüquqları verən, təmin edən tərəf və sosial hüquqlardan istifadə edən tərəf. Sosial hüquqlardan istifadə edən tərəfi müəyyənləşdirmək üçün isə qanunda ailəyə, ailə üzvlərinə və müxtəlif ailə tiplərinə anlayış verilməlidir. Bu onun üçün vacibdir ki, ailə üzvlərindən kimlər sosial yardımlardan istifadə edə bilər və hansı miqdarda istifadə edə bilər sualına cavab tapmış olaq. Subyektlərin ikinci tərəfi isə sosial hüquqları verən, onu təmin edən tərəfdir. Təbii ki burada söhbət dövlətdən gedir, çünki hüquqları vətəndaşlara verən də, onu təmin edən də dövlətdir. Lakin maliyyə tərəfinə gəldikdə isə burda subyektlər qismində həm dövlət tərəfindən maliyyələşən orqanlar, həm də ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, fondlar çıxış edə bilərlər. Məqsəd ailənin sosial rifahıdır. Bunun üçün təkcə dövlət deyil, dövlət tərəfindən istər ictimai fəaliyyətinə, istərsə də kommersiya fəaliyyətinə köməklik göstərən bütün təşkilatlar ailəyə sosial yardım proqramında iştirak etməlidirlər. Dövlət də daxil olmaqla ailəyə sosial yardım proqramında maliyyələşdirən tərəf qismində iştirak edən təşkilatların hər birinin hüquq və vəzifələri, fəaliyyət sferası müəyyən olunmalıdır ki, bu da öhdəliklərlə bağlı gələcəkdə hər hansı bir qeyri-müəyyənliyin vaxtında aradan qaldırılmasında köməklik göstərəcəkdir.

Əsas məsələlərdən biri də tənzimlənməsi vacib olan sosial hüquqlar dairəsinin qanunla müəyyən olunmasıdır. Bu zaman, ilk növbədə, beynəlxalq təcrübəyə nəzər salınmalı və "ailənin var olması, yaşaması" üçün gərəkən

sosial hüquqlar göstərilməlidir.

Yuxarıda qeyd olunanlardan müsbət bir nəticə çıxarsaq, təklif kimi irəli sürdüyüm "Ailəyə sosial yardım" adlı qanun layihəsinin tərkib hissəsini müxtəlif bölmələrə bölməklə belə bir ardıcıllıq gözlənilən, cizgi yaratmaq olar:

**I bölmədə**: ailənin tərifi, ailə üzvləri, müxtəlif növlərə aid ailə tipləri ilə əlaqəli normalar əks olunmalı, eyni zamanda ailə üzvlərindən kimlərin, nə səbəblə və hansı miqdarda sosial təminatlardan istifadə edə bilmə imkanı müəyyənləşməlidir.

**II bölmədə:** ailənin istifadə edəcəyi sosial hüquqların növləri nizamlanmalı, bu hüquqlar sırasında isə müqayisəli təhlil aparsaq, dünya ölkələrində ən çox istifadə edilən sosial hüquqlar daxil edilməlidir. Məsələn:

a) gənclərə ailə qurmaq üçün yardımlar;
b) kirayə və ya ev əldə etmək üçün yardımlar;
c) qida yardımları;
ç) evdar xanımlara sosial yardımlar;
d) doğuşdan əvvəl və sonrakı yardımlar;
e) uşaqlara təhsil almaq üçün lazımi xərcləri qarşılamaq üçün sosial yardımlar;
ə) ailədə əlil uşaqlara təhsil və təlim yardımları;
f) yaşlı ər – arvad üçün sosial yardımlar;
g) xəstəlik və əllik hallarında edilən müxtəlif cür sosial yardımlar;
h) həqiqi hərbi xidmətdə olan əsgər ailələrinə hərtərəfli sosial yardımlar;
x) fərqli peşə sahibliyinə malik ailələrin xüsusiyyətlərinə görə ayrılan sosial yardımlar.

**III bölmədə:** yardım üçün ayrılan fondlar, maddi imkandan asılı olaraq yardım nisbətləri, ödəməni həyata keçirmək ilə bağlı məsələlər.

**IV bölmədə:** bütün bu münasibətləri tənzimləməni həyata keçirən orqanın fəaliyyəti ilə bağlı müddəalar.

Bununla yanaşı "Ümumi Sığorta" qanunu hazırlanaraq, yuxarıda təklif etdiyimiz "Ailəyə sosial yardım" qanunu ilə həmahəng işləyərsə, bəlkə də ailənin sosial təminatları ilə bağlı problemlərin bir az da tez aradan qaldırılmasında böyük rol oynayar. Nəticə olaraq onu qeyd etmək olar ki, ailəyə göstəriləcək sosial yardımlar ölkəmizdə ailə bağlarını daha da möhkəmləndirəcək və qanuni bağlanan nikahların sayını artıracaqdır. Azərbaycan cəmiyyətini idarə edəcək sağlam ruhlu ailə qurmaq və yaşatmaq üçün bu qanunların qəbulu vacibdir. Bütün bunların öhdəsindən gəlmək mümkün olsa, cəmiyyətimizdə ailə sosial və iqtisadi rifaha nail olacaq, ailə hürriyyəti isə boş bir hüquqi fikirdən reallığa çevriləcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2012.
2. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, 2012.
3. "Sosial sığorta haqqında". Azərbaycan Respublikasının qanunu. Bakı, 1997.

4. “Dövlət qulluğu haqqında”. Azərbaycan Respublikasının qanunu. Bakı, 2012.
5. Dr. Erol CANSEL “Ailə və sosial devlet”. Hukuk ve sosyal bilimler dergisi, 2007, 8 s.
6. Şahinkaya, R. Orta Anadolu köylerinde aile strukturu, Ankara, 2006, 13 s.
7. Bkz. Ansorg, L. Familienrecht der DDR, Berlin, 2004, 13 s.
8. Bkz. Kaser, M. Das Römische Privatrecht, Erster Abschnitt, Menchen, 2007, 123 s.
9. Bk. Velidedeoğlu, H.V. Aile Hukuku, İstanbul, 2002, 67 s.
10. Freienfels, M.W. Ehe und Recht, Tübingen, 2005, 120 s.
11. Dombois, H. Familienrechtsreform, Witten-Ruhr, 2003, 80 s.
12. 1948-ci il İnsan hüquqları Bəyannaməsi. 16 m.
13. Avropa sosial Xartiyası 7 iyul 1961, 16 m.

## СОЦИАЛЬНОЕ ГОСУДАРСТВО И СЕМЬЯ

**А.Н.ИБРАГИМОВА**

**РЕЗЮМЕ**

В статье указано, что семья является основной ячейкой общества и, поэтому социальная реформа должна начинаться именно с семьи. Так, только социально-обеспеченная семья может стать основой здорового общества. Для достижения этой цели государство должно развивать концепцию «семья и социальное государство» и усовершенствовать законодательную базу в этой сфере. Автор статьи для решения социальных проблем ставит вопрос о необходимости принятия закона о «Социальной помощи семье». Кроме этого, в статье выдвигаются следующие предложения: установить перечень социальных прав, используемых семьей; определить функции органа, обеспечивающего эти права; регламентировать фонды и другие финансовые источники, используемые для реализации социальных прав и другие.

**Ключевые слова**: семья как основная ячейка общества, семья и социальное государство, право на обеспечение социальной защиты семьи

## SOCIAL STATE AND FAMILY

**A.N.IBRAHIMOVA**

**SUMMARY**

The article describes the family as a basic element of the society. The establishment of a social state, first of all stipulates reforms in the society. The social reform must begin from the family as a basic element of the society. Thus, protection of the social welfare of the family requires forming the basis for a healthy society, as it is an important prerequisite for the further development of the concept of the family and social needs of the state. To do this, first of all, state legislation in this area should be improved. The proposal was put forward as a "family welfare" of the legislative framework, to solve social issues related to family and work. The social rights enjoyed by families, and the functions of the body ensuring these rights should be determined, funds and other financial sources that are involved in the implementation of social rights should be regulated. The positive side of this is that it creates individual rights, personal responsibility, and it also eliminates the uncertainty in the relationship.

**Key words:** the family as a basic element of the society, the family and the social state, to provide social welfare of the family, the rights, the exercise of rights